# Azərbaycan milli tarixşünaslığında dövlət müstəqilliyinə aparan yolun tarixini tədqiq edən ilk alim



**Azərbaycan xalqı dünya xalqları içərisində ən qədim tarixə və mədəniyyətə sahib bir xalqdır. Bu qədim və zəngin tarixi vərəqlədikcə, bir azərbaycanlı olaraq qürur hissi keçirir, mənsub olduğumuz xalqın dünya tarixində müstəsna yeri olduğuna bir daha əmin olursan. Dünya xalqları içərisində ilk siyasi qurumlar, dövlət və dövlət orqanizmi yaradıb onu idarə etməyi bacaran xalq olmasını, ən əsas onun dövlətçilik tarixi təsdiq edir. Dövlət qurmaq və dövləti idarə etmək, onu qoruyub saxlamaq, onun ənənələrini yaşatmaq hər xalqa nəsib olmur. Azərbaycan xalqı qədim və zəngin dövlətçilik ənənələrinə və mədəniyyətinə malik olan bir xalqdır. Təsadüfi deyil ki, XIX əsrin əvvəllərində Azərbaycanın ərazisi çar Rusiyası və Qacarlar İranı arasında bölüşdürülsə də, xalq öz milli dövlətçilik ənənələrini unutmadı. Bütöv Azərbaycanı iki hissəyə parçalayan 1813-cü il Gülüstan, 1828-ci ildə Türkmənçay cinayətkar sövdələşmələrindən 90 il sonra - 1918-ci ildə Azərbaycan xalqı özünün tarixi torpaqlarının bir hissəsində - yalnız Şimali Azərbaycanın 114 min km$^2$-də milli dövlətçiliyini bərpa edə bildi. Müstəqilliyyə gedən bu yol çox ağır və məşəqqətli olmuşdur. XX əsrin əvvəlində formalaşan, inkişaf edən və getdikcə güclənən milli müstəqillik düşüncəsinin daşıyıcılarının və Azərbaycan milli kapital nümayəndələrinin fəaliyyətini ilk dəfə Azərbaycan milli tarixşünaslıq elmində işıqlandıran, bu böyük insanlar haqqında dəqiq tarixi məlumatları xalqımıza olduğu kimi təqdim edən alim, tarix elmləri doktoru, professor Dilarə Bağır qızı Seyidzadədir. Doğrudur, Azərbaycan milli tarix elminin çox görkəmli nümayəndələri vardır və onlar milli tariximizin bir çox aktual problemlərinin tədqiqində müstəsna xidmətlər göstərmişlər. Lakin, Azərbaycan milli tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyətinə gedən bu möhtəşəm yolun tarixini hələ sovet hakimiyyəti illərində, öyrənən məhz Dilarə xanım Seyidzadə olmuşdur.**

1918-ci il mayın 29-da ağır və acı bir “zərurətdən” doğan “səbəb” nəticəsində Azərbaycan Milli Şurasının qərarı ilə, Osmanlı sultanı IV Muradın təbirincə desək, “Azərbaycanın gözünün nuru İrəvan” şəhəri və onun ətrafında olan 9 min km$^2$ ərazi ermənilərə güzəştə gediləndən sonra İrəvan şəhəri və ətraf bölgələrin minlərlə azərbaycanlı əhalisi erməni rasizminin törətdiyi cinayətlərin qurbanına çevrildi. İrəvanda yaşayan yerli azərbaycanlı əhalinin böyük əksəriyyəti, o cümlədən ziyalılar öz doğma şəhərlərini tərk etmək məcburiyyətində qaldılar. Əziz Əliyev, Mustafa bəy Topçubaşov və İrəvan şəhərinin tanınmış bir çox ziyalı ailələri kimi, Seyidzadələr ailəsi üçün də bu doğma şəhəri tərk etməkdən başqa yol qalmamışdı. Erməni faşizminin törətdiyi cinayətlər nəticəsində İrəvandan pərən-pərən düşən Seyid Məhəmmədin nəvələri - Həsən, Hüseyn, Bağır və Zəhra Türkiyənin İğdır, Ərzurum və Qars şəhərlərindən keçərək 1920-ci ildə Tiflisə gəldilər. Ataları Seyid Qasım vəfat etdikdən sonra Tiflisə gələn və burada bir neçə il yaşayan ailənin övladlarından biri Bağır Seyidzadə 1925-ci ildə Bakıya köçür. Hələ kiçik yaşlarından elmə böyük maraq göstərən Bağır Seyidzadə indiki Bakı Neft və Mühəndislər Universitetinə daxil olur, lakin jurnalistliyə böyük maraq göstərir, çox qısa zaman ərzində fars və fransız dillərini mükəmməl öyrənir, tərcümə işi ilə məşğul olur. Bağır Seyidzadə ixtisasca həkim olan Qeys xanımla ailə qurur və bu ziyalı ailəsində üç uşaq: Fuad, Dilarə və Xoşqədəm adlı övladlar dünyaya göz açır. Dilarə Seyidzadə 1939-cu ildə Bakıda doğulmuşdur.

Seyidzadələr ailəsinin ən tanınmış üzvlərindən biri, dünya şöhrətli kinorejissor, “O olmasın, bu olsun”, “Yenilməz batalyon”, “Dəli Kür” və “Qayınana” kimi bədii filmlərin müəllifi Hüseyn Seyidzadədir. Bütün həyatını Azərbaycan milli kino sənətinin inkişafına həsr edən bu insan, yaratdığı ölməz sənət əsərləri ilə Azərbaycan milli mədəniyyət tarixində silinməz iz qoymuşdur. Dilarə xanımın qardaşı, həyatdan faciəli şəkildə vaxtsız getmiş Fuad Seyidzadə qısa ömründə Azərbaycan və sovet memarlığı tarixində silinməz iz qoya bilmişdir. Mən Dilarə xanım Seyidzadənin elmi yaradıcılığının işıqlandırılmasına həsr etdiyim bu məqalədə ilk növbədə onun məxsus olduğu ailə üzvləri ilə bağlı bu qısa məlumatı ona görə verirəm ki, Dilarə xanımın timsalında “ot kökü üstə bitər” atalar sözü bir daha təsdiqini tapır.

Dilarə xanım Seyidzadə 1946-cı ildə Bakı şəhər 134 saylı məktəbin birinci sinfinə daxil olub. Lakin atası Bağır Seyidzadənin diplomatik işə keçməsi ilə əlaqədar olaraq o, əvvəlcə Təbrizdə keçmiş SSRİ-nin Baş konsulluğunda fəaliyyət göstərən sovet məktəbində 1948-ci ilədək təhsil almışdır. 1948-ci ildə isə Dilarə xanım Seyidzadə ailəsi ilə birlikdə atasının diplomatik xidmətinin başa çatması ilə əlaqədar Bakıya dönür və əvvəlcə 134 saylı məktəbdə təhsilini davam etdirir, 1955-1956-cı illərdə isə Bakı şəhər 6 saylı orta məktəbdə təhsilini başa vurur. 1956-cı ilə Dilarə xanım sənədlərini Bakı Dövlət Universitetinin tarix fakültəsinin rus bölməsinə təqdim edir və qəbul imtahanlarını müvəffəqiyyətlə verərək tələbə adını qazanır. Universiteti uğurla bitirən Dilarə xanım AMEA A.A.Bakıxanov adına Tarix İnstitutuna işə qəbul edilir. 1964-1967-ci illərdə o, SSRİ EA Tarix İnstitutunun doktoranturasına daxil olur və ona ilk tədqiqat mövzusu olaraq “Azərbaycan burjuaziyası 1905-ci ildə” adlı dissertasiya işi verilir. Dilarə xanım 1974-cü ilin fevralında Tarix İnstitutu nəzdində yaradılmış Dissertasiya Şurasında dissertasiya işini uğurla müdafiə edir və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini alır.

Burada mən bir məqama xüsusi diqqət yetirmək istəyirəm: Dilarə xanım Seyidzadəyə qədər bu mövzu Azərbaycan tarixşünaslığında, ümumiyyətlə, tədqiq olunmamışdı. Doğrudur, bu problem keçmiş Sovet Rusiyası tarixşünaslığında marksizm-leninizm konsepsiyası mövqeyindən tədqiq olunsa da, bu əsərlərin bir neçəsində çar Rusiyası Dövlət Dumasında Azərbaycan deputatlarının bəzilərinin fəaliyyətinə sinfi nöqteyi-nəzərdən yanaşıldığı məlumdur. Dilarə xanım Seyidzadə bu məsələyə 1991-ci ildə nəşr etdirdiyi “Azərbaycan deputatları Rusiya Dövlət Dumasında” adlı əsərində (səh. 5) öz münasibətini bildirmişdir. Bu, Azərbaycan deputatlarının I Dövlət Dumasında fəaliyyətinin B.Y.Stelnik tərəfindən “Azərbaycan burjuaziyası və Dövlət Duması” adlı 1983-cü ildə nəşr olunmuş məqaləsinə verdiyi elmi-tənqidi qiymətdə öz əksini tapmışdır. Lakin bu da bir həqiqətdir ki, həmin dövrdə bu problemlə bağlı istinad ediləcək obyektiv elmi ədəbiyyat yox idi. Yazılan ədəbiyyatın əksəriyyətində Azərbaycan milli burjua nümayəndələri istismarçı sinfin nümayəndələri kimi təqdim olunurdu. Həqiqəti əks etdirən çoxsaylı arxiv sənədlərinə isə toxunulmamışdı. Təkcə keçmiş SSRİ məkanında deyil, həm də dünya tarix elmində böyük nüfuz qazanmış AMEA-nın müxbir üzvü Əlövsət Quliyev bu mövzunun tədqiqinin aktual olduğunu qeyd edəndə, sovet hakimiyyəti və ideoloji sisteminin hökmran olduğu bir şəraitdə onu gənc bir tədqiqatçı qıza təklif edəndə bu problemin tədqiqinin nə qədər çətin olduğunu bilirdi. Lakin Əlövsət Quliyev tam əmin idi ki, bu ağır elmi işin öhdəsindən gənc və istedadlı tədqiqatçı Dilarə Seyidzadə gələ biləcək. Dilarə xanım Seyidzadə mövzunu araşdırarkən ilk növbədə Moskva, Sankt-Peterburq, Tiflis və Bakı şəhərlərində yerləşən dövlət arxivlərində saxlanılan sənədləri öyrənir. Bu zaman H.Z.Tağıyev, A.M.Nağıyev, A.S.Əsədullayev, İ.Hacınski, A.M.Muxtarov, A.B.Quliyev kimi sahibkarların, Ə.M.Topçubaşov, F.X.Xoyski, M.Y.Cəfərov, M.Ə.Rəsulzadə, X.Xasməmmədov, N.B.Yusifbəyli, Ə.Haqverdiyev, Ə.Ağaoğlu, M.H.Hacınski və digər ziyalıların fəaliyyəti ilə dərindən tanışlıq Dilarə xanıma XX əsrin əvvəlində Şimali Azərbaycanın ictimai-siyasi həyatında baş verən hadisələrin mahiyyətini bütün təfərrüatı ilə öyrənməyə imkan verir. Məlum bir həqiqətdir ki, Dilarə xanım sovet dövründə apardığı tədqiqatlar əsasında XX əsrin əvvəlində Şimali Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyət, siyasi təşkilatların yaranması, 1905-1906-cı illərdə çar Rusiyası hakim dairələrinin təhriki ilə ermənilər tərəfindən qəsdən yerli azərbaycanlı əhaliyə qarşı törədilən cinayətlərin mahiyyətinin açılmasına, azərbaycanlı əhalinin Əhməd bəy Ağaoğlu və digər ziyalıların təşəbbüsü ilə özünü müdafiə etmək üçün “Difai” və “Müdafiə” təşkilatlarını yaratmalarına xüsusi diqqət yetirmişdir. 1906, 1907 və 1912-ci illərdə Rusiya Dövlət Dumasına keçirilən seçkilərdə Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Əbdürrəhman bəy Haqverdiyev, İsmayıl xan Ziyadxanov, Məmməd Yusif Cəfərov kimi milli-demokratik ziyalıların deputat seçilmələri, 1906-cı ildə İsmayıl xan Ziyadxanovun Dövlət Dumasında etdiyi ittihamedici çıxışını öz monoqrafiyasında nəşr etdirməsi Azərbaycan xalqının milli müstəqillik yolunun nə qədər ağır olduğunu elmi əsaslarla söyləməyə imkan verdi. 30 ilə yaxın bir dövr ərzində apardığı tədqiqatların nəticəsi olaraq Dilarə xanım 1991-ci ildə “Azərbaycan deputatları Rusiya Dövlət Dumasında” adlı 9 çap vərəqi həcmində monoqrafiyasını nəşr etdirdi. Qeyd etməliyəm ki, bu əsər Sovet imperiyasının süqutu ərəfəsində Azərbaycanın XX əsrin əvvəlində siyasi və sosial-iqtisadi həyatını əks etdirən, milli demokratik hərəkatın yüksəlişini, çar Rusiyasının Cənubi Qafqazda yeritdiyi müstəmləkə siyasəti, 1909-cu ildən başlayaraq Azərbaycan milli kapital nümayəndələrinin siyasi kredosunun formalaşması, azərbaycanlı deputatların Rusiya Dövlət Dumasında milli mənafedən çıxış edərək göstərdikləri fəaliyyət geniş şəkildə işıqlandırılmışdır.

1993-cü ildə Dilarə xanım Seyidzadə doktorluq dissertasiyasını müdafiə etdi və həmin ilin may ayının 21-də ona tarix elmləri doktoru elmi dərəcəsi adı verildi. Bu dövr Azərbaycan xalqının həyatında çox mürəkkəb bir dövr idi. 1993-cü ildə Azərbaycan xalqının siyasi həyatında müstəsna bir hadisə baş verdi. 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan xalqı iki il sonra dövlətçiliyi itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Bu mürəkkəb və çətin tarixi dönəmdə Azərbaycan xalqı böyük dövlət xadimi, XX əsrin ikinci yarısında milli şüurun dirçəlişində müstəsna rol oynamış, gələcək müstəqil dövlətçilik ideyasının əsaslarını qoymuş Heydər Əliyevi müstəqilliyi möhkəmlətmək və xalqı bəlalardan xilas etmək üçün hakimiyyətə dəvət etdi. Azərbaycan tarixinin, mədəniyyətinin, eləcə də ictimai həyatın bütün sahələrinin görkəmli ziyalılarını, ilk növbədə alimlərini yaxından tanıyan Heydər Əliyev milli dövlət quruculuğunda ilk növbədə xalqına, onun qiymətli ziyalılarına arxalandı, onları müstəqil Azərbaycan dövlətinin qurulması işinə dəvət etdi. Bu ziyalılar içərisində Dilarə xanım Seyidzadə də var idi.

Həyatının 32 ilini milli tarix elminin ən mühüm problemlərindən birinə həsr edən t.e.d., professor Dilarə xanım Seyidzadə Azərbaycan Respublikası Prezidenti Administrasiyasına işə dəvət olundu. Bu faktı da qeyd etməliyəm ki, t.e.d., professor Dilarə xanım Seyidzadə 1993-cü ilə qədər iki monoqrafiyanın, 30-dan çox elmi məqalənin müəllifi və bir çox sanballı ümumiləşdirici elmi nəşrlərin həmmüəllifidir. O, Prezident Administrasiyasına işə dəvət olunsa da, elmdən, tədqiq etdiyi elmi problemdən ayrılmadı. O, 1997-ci il yanvarın 31-də ümummilli lider Heydər Əliyevin AMEA-nın aparıcı alimləri ilə görüşün iştirakçısı kimi, ulu öndərin: “Azərbaycanın XİX-XX əsrlər” tarixi yenidən yazılmalıdır” fikrini əsas götürərək 1998-2003-cü illərdə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun nəşr etdiyi VII cildlik “Azərbaycan tarixi”nin IV və V cildlərinin yazılmasında bilavasitə iştirak etmişdir. Bununla kifayətlənməyən Dilarə xanım 1998-ci ildə “Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar” adlı 15 çap vərəqi həcmində möhtəşəm monoqrafiyasını nəşr etdirdi. Bu monoqrafiyada Azərbaycan milli tarixşünaslığında ilk dəfə olaraq XIX əsrin sonu, XX əsrin əvvəlində Şimali Azərbaycanda xalqın milli müstəqillik uğrunda apardığı mübarizə hərəkatının yaranması, formalaşması və inkişafı, milli kapital təbəqəsinin formalaşması, inkişafı, milli burjuaziyanın xalqın milli mənlik şüurunun oyanması, maariflənməsi və siyasi mədəniyyətinin yüksəlməsində iştirakı, müstəmləkə siyasətinə qarşı çıxış edərək xalqın hüquqları uğrunda mübarizəsi, hər cür maneə, çətinlik və məhdudiyyətlər şəraitində deputat seçilmiş Azərbaycan xalqının nümayəndələrinin çar Rusiyasının Dövlət Dumasının tribunasından xalqın haqq səsinin bütün imperiya sahiblərinə çatdırmaları mərhələlərinin zəngin arxiv sənədləri, elmi ədəbiyyat və mənbələr əsasında öz əksini tapmışdır. Əsərin “Rusiya Dövlət Duması və Azərbaycan” adlı iki paraqrafdan ibarət III fəslində və ondan sonra buraya əlavə edilən “Son söz” hissəsində müəllif çar Rusiyasının qanunverici orqanında azərbaycanlı deputatların fəaliyyətini, onların milli müstəqilliyə gedən yolu necə saldıqlarını tarixi-xronoloji ardıcıllıqla yüksək elmi təhlil əsasında vermişdir. “Son söz” hissəsində (səh. 237) müəllif 1916-cı ildə Məmməd Yusif Cəfərovun müsəlman parlament fraksiyası adından çıxışını verərək Azərbaycan xalqının etiraz səsini səsləndirmişdir: “Heç vaxt milli əsarət zülməti indiki azadlıq mübarizəsi dövründəki səviyyəyə gəlib çatmamışdır. Heç vaxt mərkəzləşdirilmiş rəhmsiz bürokrat mexanizmi Rusiyanın özgə xalqlarının milli hisslərini bu qədər təhqir etməmiş və indiki qədər onların məişət və mənəvi xüsusiyyətlərini eybəcərləşdirməmişdir”. Bu çıxış, əslində, mahiyyət etibarı ilə milli müstəqilliyə bir çağırış idi.

Buna görə də t.e.d., professor Dilarə xanım Seyidzadənin bu əsərini haqlı olaraq Azərbaycan milli tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyətinə aparan yolu işıqlandıran ilk tədqiqat işi hesab etməkdə haqlıyıq. Məsələnin maraqlı tərəfi odur ki, Dilarə xanım bu tədqiqat işinin yüksək elmi səviyyəsi ilə kifayətlənməyib, onun üzərində yenidən işlədi və 2004-cü ildə adıçəkilən əsərin Azərbaycanca yeni variantını hazırladı. Monoqrafiya 2011-ci ildə ingilis, 2018-ci ildə isə rus dilində nəşr olundu. Qeyd etməliyəm ki, yeni nəşr 1998-ci ilin nəşrindən xeyli fərqlənir. 23 çap vərəqi həcmli monoqrafiyada 836 istinad, çoxsaylı mənbələr, dövri mətbuat yer alır. Əsər Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Rusiya Dövlət Tarix Arxivi (Sankt-Peterburq), Rusiya Federasiyası Dövlət Arxivi (Moskva), Gürcüstan Dövlət Arxivi (Moskva), Gürcüstan Dövlət Arxivi və AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində saxlanılan materiallar, sənədlər əsasında yazılmışdır.

Burada ilk dəfə müəllif I Dövlət Dumasında İrəvan və Yelizavetpol quberniyalarında ermənilərin yerli azərbaycanlı əhaliyə qarşı törətdikləri cinayətlər haqqında və aqrar məsələ ilə bağlı azərbaycanlı deputat İsmayıl xan Ziyadxanovun çıxışını verir və bu çıxışın çar Rusiyasının Cənubi Qafqazda yeritdiyi müstəmləkə siyasətinin yerli azərbaycanlı əhali üçün ağır nəticələr verdiyini göstərməklə bərabər, üzdəniraq siyasətin antiinsani mahiyyət daşıdığını faktlarla təsdiq edir. Sonuncu nəşrin diqqəti cəlb edən bir cəhəti də odur ki, onun səhifələrində 1906-1917-ci illərdə fəaliyyət göstərmiş I, II, III və IV Dövlət dumalarına seçilmiş azərbaycanlı deputatların (Ə.M.Topçubaşov, F.X.Xoyski, X.Xasməmmədov, İ.Z.Tağıyev, Ə.Haqverdiyev, M.Y.Cəfərov, İ.Ziyadxanov, M.Əliyev, Z.Zeynalov) çıxışları ilə bərabər, Əli bəy Hüseynzadənin, M.Ə.Rəsulzadənin, Əhməd bəy Ağaoğlunun, “Difai” və “Müdafiə” təşkilatlarının möhürlərinin və Dövlət Dumasının binasının fotoşəkilləri yer almışdır. T.e.d., professor Dilarə xanım Seyidzadənin “Azərbaycan XX əsrin əvvəlində: müstəqilliyə aparan yollar” əsəri müasir Azərbaycan milli tarixşünaslıq elminə əvəzsiz bir töfhədir.

Dilarə xanım Seyidzadənin milli tarixçi kadrların yetişdirilməsində də böyük xidmətləri vardır. O, tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün İnstitutun bir neçə doktorantı və dissertantına elmi rəhbərlik etmiş, tarix üzrə elmlər doktoru elmi dərəcəsini alan iddiaçıların elmi məsləhətçisi olmuşdur. Bir daha xatırladıram ki, ulu öndər Heydər Əliyev yeni, müstəqil Azərbaycan dövlət quruculuğu işinə başlayarkən Azərbaycan xalqının tanınmış ziyalıları, elm və mədəniyyət xadimləri ilə bir neçə dəfə görüşlər keçirdi və bu ziyalıların, elm adamlarının bir neçəsini dövlət strukturlarında işləməyə dəvət etdi. Bu ziyalılar içərisində t.e.d., professor Dilarə xanım Seyidzadə də var idi. Əslində ulu öndər Seyidzadələr ailəsini çox yaxşı tanıyırdı. Bu ailənin necə yüksək milli düşüncə sahibi olduğundan xəbərdar idi. Mən Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində işləyərkən bir sənədə rast gəldim. Bu sənəd 1950-ci il 23 sentyabr 479 saylı “tam məxfi, təcili, yalnız şəxsən” qrifi ilə Azərbaycan KP MK-nın xüsusi şöbəsinin müdiri Novikovanın imzası ilə Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevə, MK katibi T.Yaqubova, Dövlət Təhlükəsizlik naziri S.Yemelyanova və Daxili İşlər naziri S.Atakişiyevə ünvanlanmış müraciət məktubu idi. Məktuba Azərbaycan SSR Dövlət Təhlükəsizlik naziri S.Yemelyanovun hazırladığı 753 səhifəlik arayışdan götürülmüş 4 səhifəlik siyahı daxil idi. S.Yemelyanovun hazırladığı bu siyahıda 1950-ci ildə Azərbaycan SSR-də dövlət orqanlarında çalışan bir sıra məsul şəxslərin və ziyalıların Türkiyədə qohumlarının yaşamaları, onların düşüncələrində milli, türkpərəst elementlər olduğu qeyd olunur və onlar haqqında qərar qəbul etmək üçün təkliflər verilirdi. Bu siyahıda (səh. 398-401) respublikanın tanınmış dövlət, elm və mədəniyyət xadimlərinin adları verilmişdir. Onların arasında Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini Həsən Əli oğlu Seyidov, Azərbaycan EA-nın prezidenti Musa Mirzə oğlu Əliyev və Azərbaycan SSR Kino sənayesi naziri Bağır Qasım oğlu Seyidzadənin də adları vardır. Onun adının qarşısında tutduğu vəzifədən azad edilməsi yazılmışdır (ARPİİSSA, f.1, siyahı 36, sax.qov. 170, səh. 398-401). Məsələnin maraqlı tərəfi odur ki, Vətəninə, millətinə, torpağına bütün varlığı ilə bağlı olan bu insanların günahı o idi ki, onlar milli düşüncə sahibi idilər. Bağır Seyidzadənin qardaşı, Azərbaycan milli kino sənətinin təkrarolunmaz nümunələrini yaratmış Hüseyn Seyidzadənin də həyat yolu hamar olmamışdır. Onun rejissoru olduğu “Dəli Kür” filminin başına gətirilən oyunlar bir daha sübut edir ki, o milli düşüncə sahibi olaraq, Vətəni Azərbaycana bütün varlığı ilə bağlı idi:

Dilarə xanım Seyidzadə Prezident Aparatına işə dəvət olunandan sonra çox keçmədən ulu öndər Heydər Əliyev onu özünün köməkçisi təyin edir. Nə üçün məhz Dilarə xanımı? Ona görə ki, o, dərin elmi bilik, yüksək mədəniyyət və intellekt sahibi olmaqla bərabər, həm də doğrunun, düzgünlüyün, həqiqətin tərəfdarı idi. Doğru danışmaq, həqiqəti hər yerdə çəkinmədən demək, insanpərvərlik və xeyirxahlıq etmək bu insanı xarakterizə edən ən mühüm xüsusiyyətlərdəndir. Bu yaxınlarda çox hörmətli həmkarım, institutunun “Ümumi tarix” şöbəsinin rəhbəri, siyasi elmlər üzrə fəlsəfə doktoru Aynur xanım Bəşirli ilə söhbət edərkən hər ikimiz üçün də əziz olan Dilarə xanımdan, onun elmi yaradıcılığından danışdıq. Aynur xanım vaxtilə Dilarə xanım haqqında “Dilarə xanıma məhəbbətlə, yaxud “O qadın kimdir?” adlı məqalə yazdığını söylədi. Mən bu məqaləni oxudum, Dilarə xanımın həqiqi obrazı bir daha gözlərim önündə canlandı. Dilarə xanımla bağlı yazılan bütün fikirlərlə razıyam, amma “O qadın kimdir?” sualının cavabında: “Dilarə xanım Seyidzadə Prezdentin köməkçisidir” fikrinə əlavə etmək istəyirəm: “O, ulu öndər, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin köməkçisidir”. Çünki o böyük İnsanın köməkçisi olmaq hər kəsə qismət olan səadət deyildir. Bu səadət və seçim Dilarə xanım Seyidzadənin taleyinə yazılmışdı. 10 il ərzində hər addımda ulu öndərin yanında olmaq, keçirdiyi görüşlərdə iştirak etmək, xalqımızın, millətimizin, Vətənimiz Azərbaycanın gələcək taleyi ilə bağlı qərarların qəbul edilməsinin şahidi olmaq, XX əsrin əvvəlində milli müstəqilliyə gedən yolun tarixini yazan bir alim, vətənpərvər ziyalı xanım üçün böyük səadət və həyat məktəbi idi. Həmişə Dilarə xanımla görüşəndə ondan memuar yazmağını xahiş etmişəm. Çünki Dilarə xanım Seyidzadənin ulu öndərin köməkçisi və bir tarixçi alim kimi gördüklərini heç kim görməmiş və heç kim də bilmir. İnanıram ki, Dilarə xanım Seyidzadə hamımızın istəyini nəzərə alacaqdır.

Oktyabr ayının 25-də Dilarə xanım Seyidzadənin doğum günüdür. Bu gün onu tanıyan və sevən bütün insanlar üçün əziz gündür. Mənim üçün isə o həyatda büllur kimi saflıq, paklıq, düzgünlük, xeyirxahlıq, mərdlik nümunəsidir. Şadam ki, onun kimi böyük bir İnsanı, Alimi və müstəqil Azərbaycan dövlətinin qurulmasında bilavasitə iştirak edən bir dövlət xadimini tanıyıram.

Əziz Dilarə xanım, Sizi doğum gününüz münasibətilə bütün tarixçi alimlər, Tarix İnstitutunda çalışan həmkarlarınız adından ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı arzulayıram. Nə xoşbəxtik ki, biz Sizdən öyrənmişik və öyrənirik. Və hələ neçə-neçə tarixçilər nəsli Sizdən öyrənəcəklər!

**Cəbi BƏHRAMOV,**
**AMEA A.A.Bakıxanov adına**
**Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini,**
**tarix üzrə fəlsəfə doktoru, dosent.**